# Brilyant qaşlı tək sırğa

Bizə təzə direktor təyin olundu. Adətən, təzə ilə maraqlanırlar, haranı bitirib, ixtisası nədi, hardandi və sairə və ilaxır. Bizim də kollektivimizdə maraqlananlar var. Öyrəndilər ki, İnşaat Uni-versitetini bitirib, inşaat materiallarının istehsalı texnologiyası ixtisası üzrə mühəndisdi. Qapı-pəncərə ixtisası sahəsimdə professordu, elmlər doktorudu, ziynət əşyaları həvəskarıdı.



İlk gündən öz qaydalarını qoydu. O, gəlib-gedərkən koridorda kimsə görünməməlidi. İş vax-tı hər kəs otağında işiylə məşğul olmalıdı. Qəbuluna yalnız ayrılmış saatlarda düşmək olacaq, ön- cədən yazılmaq şərtilə.

Elmi şuranın və texniki şuranın toplantısını keçirdi, şöbə müdirlərinə, baş mütəxəssislərə işi canlandırmağı tapşırdı. İşin öhdəsindən gəlməyənlərlə yolları ayrılacağını xəbərdar elədi.

Adamlara qarşı o qədər də marağım yoxdu. Üstəlik, Təcrübəsınaq emalatxanasının müdiriyəm, baş qaşımağa vaxtım olmur. Mütəxəssislərimizin təzə təklifləri üzrə hər cür pəncərə, qapı, daha nələrin nümunələrini düzəldirik, sınaqdan keçiririk. Bəzən özümün fikirlərim, əlavələrim olur. Bəlkə də institutda ən çox işləyən bizimkilərdi. Dilə gətirəndə isə bəzi ağzıgöyçəklərin acığına gəlir. Nə isə.

O, məni çağırdı. İlk dəfə bilavasitə yaxından görüşdük. Sözsöhbət düz çıxdı. Hündür boylu, gövdəli, zəhmli baxışlı bu adam son dəbdəki bahalı paltarda idi, saç düzümü yerli-yerində. Barmağında iri və əcaib qızıl üzük, qolunda qızıl saat qızıl qolbağıyla, bunlar bəlkə də ən yeniləri idi, hər halda mən ilk dəfə görürdüm. Gözündə qızıl gövdəli eynək və ... və bir qulağında brilyant qaşlı sırğa. Hə, masasında da ən bahalı mobil telefonların ikisi, müxtəlif firmalarınkı. Sırğası mənə bir qədər təəccüblü göründü. Kişilərin sırğa taxması xaricdə son zamanlar dəbə düşsə də bizdə sırğa taxan kişiyə çox nadir hallarda rast gəlinir. Belə də, tək-tük. Tərəşdən sonra üzünə çəkdiyi brend krem in və kişi ətrinin qoxusu gəlirdi. Nə isə. Müasir, bəlkə də ultramüasir görkəmi vardı.

Mən salam verəndə o özünü eşitməzliyə vurub sərt səslə birbaşa işdən danışdı:

- Pəncərə düzəltməliseəən, - professor çərçivənin uzunluq və hündürlük ölçülərini deyəndə də səsində hökmlülük vardı,-bacardığının ən yaxşısınıı.

Onun çöl uzunluq və hündürlük ölçülərini nəzərdə tutduğunu güman elədim, adətən, beləsini deyirlər. Gerisini deyəcəyini gözlədim, o isə sözünü bitiribmiş kimi zəhmli baxışın mənə zillədi.

Rəvan səslə soruşdum:

- Necə olmalıdı?

- Dedim dəəə, -professor səsini qaldırdı,- dedim dəəə, əlasından olmalıdıı. Gedə bilərsəən.

- Çərçivə içindəki hissələrin ölçüləri gərəkdi. Taxtadan, plastikadan, ya alüminiumdan düzəldilsin?

O, mənə baxsa da cavab vermədi. Davam elədim:

- Çərçivənin içindəki pəncərə qanadları iki bərabər hissədən ibarət olmalıdımı? Qanadlar içəri, yoxsa çölə açılmalıdımı?

Direktor soyuq baxışlarını mənə diksə də dilə gəlmirdi. Mən:

- Bəlkə vitraj pəncərə? Bəlkə veka?

Gərək ki, professor fikrə getmişdi və:

- Materialın taxtadan olması üstün sayılıır? İndi plastikadan dəbdədiii?

- Mən taxtaya üstünlük verirəm, - deyəndə professorun gözlərində sual yarandığını hiss etcək aydınlıq gətirdim, - təbii materialdı. Taxtadan olacaqsa hansı ağac növünə üstünlük verilsin?

O, cavab vermədi. Fəqət sual da verməsə baxışından hiss elədim, könlündən keçdi ki, onu maraqlandıranı anlayım və cavablandırım. Elə də etdim.

- Əgər pəncərə küçəyədisə, onda yanındakılarla eyni dizaynda olmalıdı. Otaqdan eyvanadısa, yanındakı qapıya münasibliyi nəzərə alınmalıdı. Onların şəkilləri olsaydı, aydınlaşdırardı, ya da yerində baxılmalıdı.

Mən dedikcə o fikirləşirdi, tərəddüd içində qəflətən:

- Gedə bilərsəən,- dedi.

İki gün sonra təkrar çağırdı, şəkil və ölçülər yazılmış kağız parçası verdi. Tapşırdı ki, şəkildəkinə uyğun olmalıdı, kənara çıxmağa yol verilməsin, bacarığımı göstərim, müdir vəzifəsinə layiqliyimi təsdiqləyim. Mənsə özümdən o cəhətdən razıydım ki, sırğası diqqətimi nə qədər cəlb etsə də özümü ələ almağı bacarırdım.

Təcrübəli, vaxtıyla "Qızıl əllər" müsabiqəsinin diplomunu almış baş ustaya işi həvalə elədim, özüm də baxırdım. Hazırlananda direktoru telefonla xəbərlədim. Gəlib diqqətlə baxdı. Söz demədi, nə yaxşılığına, nə də pisliyinə. Ətrafı nəzərdən keçirdi, emalatxanamızın imkanlarıyla yerindəcə tanış oldu.

Kimlərsə gəlib pəncərəni apardı. Direktordan soruşdum ki, bunu necə qeydə alaq? Sifarış kimimi? Ödəniş necə edilecək? Nağd, yoxsa köçürməylə? Onun qaşlarını düyünləməsindən mənə hər şey aydınlaşdı. Kabinetdən çıxmağa ayağa qalxanda sözə ehtiyac yox idisə də o, bir-ikisini dedi:

- Səni bu vəzifəyə kim qoyuuub? Yerinin hara olduğunu mən taparaaam.

Fikrimə ilk gələn nə oldu? Deyəsən axı, bu öncəkindən də insafsız-mürvətsizdi. Otağıma gircək masa arxasında rahatsız oturdum.

Direktor haqda təzə söhbətlər gəzirdi. Elmi şurada, texniki şurada görülmüş işlər haqda çıxışçılara diqqətlə qulaq asır, sonda işlərin hər birinə qulp qoşur. İşin səviyyəsini qaldırmağı tələb edir. Danışığı adi, çoxişlənən sözlərlədi. Onun professorsayağı mütəxəssis rəyi söyləməsi yoxdu, dilindən elmi terminlər, texniki ifadələr çıxmır.

Başım işə qarışsa da bir qulağım səsdə idi. Nəhayət, çağırdı. Emalatxana binasından kabinetə qədər yol boyu düşünürdüm ki, görəsən məni hara keçirəcək. Təkəbbürlü görünən direktor üzümə baxmadan:

-İki qapı düzəltməlisəəən, - deyib qarşısındakı şəkilləri barmaqlarıyla mənə tərəf sürütlədi, - diqqətlə baaax, kənara çıxmayasaaan.

Şəkillərə baxdım, diqqətlə. Qapıların dizaynı və ölçüləri vardı. Aydın olmayan məqamlar da. Sual vermək məcburiyyətində qaldım. Özümü toplayıb suallarımı verdim, fəqət ipək yumşaqlığıyla:

- Mənzil qapılarıdı. Bu,- barmağımı yaxındakı şəklə qoydum,- mənzilə giriş qapısıdı.

Direktor:

- Hə, düz tapmısaaan,- lağla dillendi.

- Göstərilmir, neçə kilid quraşdırılmalıdı?

O üzümə baxdı, gözlədim, nəsə demədi.

- Bir dənə dəstəli kilid quraşdırılmalıdı, buna söz yox.

- Deməli, bunu bilirsəən, - eyni tərzdə lağla davam etdi.

- İkincisinə, dəstəksizinə də ehtiyac varmı?

- Olsun, nəyi pisdiii, - sualimi cəld sualla cavablandırdı.

- Gözlük də qoyulsunmu, qapı zəngini səsləndirəcək adamı görməyə...

- Gərəkdiii! Hökmən qoyulsuuun! Bunu da soruşarlarmııı?

Şəklin digərini əlimə alıb gözdən keçirdim.

- Bu isə mənziliçi qapıdı, otağa açılanı.

- Yox, yox, bunda səhvin vaaar,- o, mənə irad tutmağa tələsdi,- duşxananın qapısıdıı.

- Bu böyüklükdə niyə? Bəlkə qısaldaq, qapının üstühdə şüşəli çərçivə edək?

Direktor düşünürdü.

- Həm də enlidi. Bəlkə daraldaq?

O, düşünməyində, mənsə şəkli araşdırmağımda idim.

- Duşxanada suqızdırıcı durur-mu? Durursa elektriklə, ya qazla qızdırılır?

- Qazla qızdırılan suqızdırıcıdıı.

- Elə isə qapının aşağı hissəsində deliklər açılmalıdı.

Direktor mənə təəccüblə baxdı.

- Hava cərəyanına şərait yaradılması vacibdi, təhlikəsizliyin tələbidi, - etmalca bildirdim.

Özünü toplayan direktor söhbəti yekunlaşdırdı:

- Tez lazımdıı, teeez, - tapşırdı, - səndən başqalarına da göstəriş verməliyəəəm, iş tapşırmalıyaaam. Gedə bilərsəəən.

Gülməkdən özümü saxlamaqdan ötrü dodaqlarımı birgə ağzıma salıb dişlərimlə sıxdım. Cəld kabinetdən çıxdım.

Baş ustaya işi qısaca izah elədim, o peşəkar idi, söz ağzımdan çıxanda fikrimi göydə tuturdu. Yüksək səviyyədə və qısa müddətdə icrasını tapşırdım. Hərdən göz gəzdirirdim. Kimlərsə onları apardı. Direktordan şikayət, irad gəlmədi. Ödəniş-filan söhbətini nə mən açdım, nə də direktor dilinə gətirdi. Hə, deyəsən bununla xəta-bəla başımdan izal oldu axı. Sifarişlərsə artdı. Emalatxanamız mütəxəssislərimizin təklif etdikləri yeni modellərlə yanaşı, direktorun tapşırdıqlarını da yerinə yetirirdi. Onsuz da işdən, necə deyərlər, gözümüzü aça bilmirdik, daha da artdı.

O, dəmir darvaza düzəltmək tapşırığını şəkilsiz izah elədi. İkiqanadlı olsun, boyağı paslanmayan, qopmayan, dağılmayan seçilsin, iki qat çəkilsin. Ölçülərini də dedi. Üz-gözünü turşutdu ki, ayağa qalxım. Mən daha nələrsə deməsini gözləyirdim. O, baxıb, yəqin ki, anladı və cəld görünüşünü, dizaynını mənim zövqümə etibar etdi. Sual verməli oldum, yumşaqcasına. Həyət üçündümü, qaraj üçündümü? Bərli-bəzəklisinimi, sayasınımı? Darvaza qanadında qapı lazımdımı? Hansı qanadında? Pultla açılanmı? O da bildirdi ki, indi vaxtı yoxdu, bu haqda sonra danışarıq. Danışdıq. Mənim ürəyimcə olan küçədən həyətə açılacaq darvaza yaratdım, ortasında qapı. Bu dəfə də ödəniş söhbəti açılmadı.

Xəbər-ətərli mühəndis özünü gülməkdən saxlaya bilməyirdi. Otağımda ikilikdə olmağımıza baxmayaraq:

- Bəziləri öz aralarında direktora "Sırğalı" deyir, - pıçıldadı.

Gülməli olsa belə özümü toxdayıb gözlərimi ondan çəkdim, saçıma əl gəzdirməklə başımı qatdım.

Günlər ötdü, irad eşitmədim. Sifarişlər daha da artdı, çeşidlər genişləndi. İşləməkdən əldən düşürdük. İşçilər dilə gəlirdi. Yuxarıdan təyin olunan direktoru yola verməliyik, deyirdim.

Fasilədə mühəndis masama açıq halda qəzet qoydu, nəsə deMədən şəhadət barmağıyla sağdakı məqaləyə işarə vurdu. Oxudum, aktual məsələyə həsr olunmuşdu. Alim adı, elmi dərəcə almaqdan ötrü elmlə məşğul olmaq vacib deyilmiş. Yazanlarla dil tapırsan, sənin adından dissertasiya yazırlar. Sənə əzbərlədirlər, elmi şurada baş verəcək sual-cavabın məşqini aparırlar. Yəni elmi şuranın hansı üzvü sənə necə sual verəcək və sənin cavabın necə olmalıdı. Nə isə. Səninçün necə yazırlarsa eləcə də elmi şurada müdafiəni təşkil edirlər, alimlik diplomunu verdirirlər. Demə, son illərdə bu da biznesə çevrilibmiş. Məqalənin sonunda müxbirin yüksək vəzifəli şəxsə müraciəti vardı, münasibət bildirməsini rica edirdi. O, nə desə yaxşıdı? Yuxarının bundan xəbəri var, diqqətdə saxlanılır, müzakirə olunacaq, müvafiq tədbirlər görüləcək.

Çərçivə ölçülərindən savayı hər şeyini mənə həvalə etdiyi qaraj darvazası hazırlamağı tapşıran günün sabahısı direktor işə gəlmədi. Xəbər yayıldı ki, neçə günlüyəsə olmayacaq, qonşu ölkədəki şirkətini yoluxmağa gedib. Bəzi adamlar haradansa nələrisə öyrənə bilirlər də. Həmin günləri rahat nəfəs aldım.

İl ötmüşdü, təzə qəzet aludəçisi mühəndisin əlində bir topasını görəndə yalançı dissertasiyalarla bağlı hansı tədbir görüldüyünü soruşdum. Haçandan-haçana yadına düşdü. Nəsə yazıl-madığını bildirdi. Soruşdum:

- Həmin müxbirin imzasıyla son günlərdə yazı çıxıbmı?

- Yox, son yarım ildə rast gəlməmişəm,- cavabı verdi.

Fikrə getdim. Güman ki, müxbirə dəyib-dolaşıblar. Bu biznes davam edirsə onun başında duranlar güclü adamlardı. Hə, bələlərinə, yəni əyri işləri hərləyənlərə nədənsə məhz güclü adamlar deyirlər.

Mühəndis təzə xəbərlə otağıma girdi, Sırğalı da sifarişlə dissertasiya yazırmış, müdafiədən də keçirir. İnstitutumuzdan birisi sifariş verib, hələ ki, adı sirr saxlanır. İnanmağım gəlmədi, axı beləsi necə yaza bilər? Şöbəsi yox, tədqiqat aparmır. Hələ bir elmi əsər, adi məqalə yaz-dığını görməmişik, eşitməmişik. Fikrimdən keçən nə oldu? Bu oldu ki, bizim professor kiməsə yazdırır. Öz adından üzə çıxarmasının səbəbi olmamış deyil. Yəni bu da professorsayağı yaza bilir, elmi rəhbərliyi bacarır. Yəqin maddi maraq da olmamış olmaz. Mühəndis fikrə getdiyimi anlayıb, nə düşündüyümü soruşdu. Mənsə başımı o yan-bu yana hərlədim.

*(Ardı var)*

**Rəsul RƏXŞANLI**